# "Şahdəniz-2" çərçivəsində yeni müqavilələr imzalandı

"Şahdəniz" konsorsiumu yatağın işlənməsinin ikinci mərhələsi üçün vacib olan daha iki müqavilənin imzalandığını elan edir.

Bu iki müqavilə ümumilikdə 226 milyon dollar dəyərindədir və "Bredero Shaw" şirkətinin boru örtükləmə bölməsinin bir hissəsi olan "ShawCor Nederland B.V." (Bredero) şirkəti ilə imzalanıb. Müqavilələr üzrə işlərə "Şahdəniz-2"nin sualtı ixrac boru kəmərlərinin korroziya əleyhinə və ağırlaşdırıcı betonla örtüklənməsi, həmçinin Bakıdakı boruörtükləmə müəssisəsi Caspian Pipe Coatings (CPC) zavodunun modernləşdirilməsi daxildir. Modernləşdirmə işləri həmin müəssisənin layihənin korroziya əleyhinə və ağırlaşdırıcı beton örtükləmə tələblərinə cavab verməsini təmin edəcək.

Örtükləmə işlərinin CPC zavodundakı modernləşdirmə işləri başa çatdıqdan sonra, 2015-ci ilin yanvar ayında başlaması nəzərdə tutulur. 16 düymlük boruların örtüklənərək borudüzmə işlərinə hazır olması 2015-ci ilin ikinci rübünə, 32 düymlük boruların örtüklənməsi işlərinin başa çatdırılması isə həmin ilin oktyabr ayına planlaşdırılır.

Müqavilələr çərçivəsində bütün tikinti və örtükləmə işləri yerli resurslardan istifadə edilməklə Bakıdakı CPC müəssisəsində həyata keçiriləcək. Müqavilələrin icrasına təxminən 300 yerli işçi qüvvəsinin cəlb olunacağı gözlənilir. Bu da "Şahdəniz" konsorsiumunun Azərbaycanın yerli resurslarından istifadəni optimallaşdırmaqla bağlı götürdüyü öhdəliyi bir daha nümayiş etdirir.

***"Azərbaycan"***